UOT 32:93/94; UOT 32:34

AFƏT GÜLƏLİYEVA

Bakı Dövlət Universiteti, "Beynəlxalq münasibətlər" kafedrası
Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
afetgulalieva@gmail.com

SOYUQ MÜHARİBƏDƏN SONRA DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏRİN BEYNƏLXALQ HÜQUQİ TƏNZİMLƏNMƏSİ MƏSƏLƏLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/111/102-106

Bu gün siyasi, iqtisadi, informasiya və mənəvi sferlarda baş verən inteqrasiya prosesləri dövlət və siyasi sistemlər arasında daha sıx qarşılıqlı əlaqəyə ehtiyac yaradır ki, bunun hüquqi tənzimlənməsinin əsasını, fikrimizcə, yalnız beynəlxalq hüquq normaları təşkil edə bilər. Beynəlxalq hüquq, mahiyyət etibarilə ümumdemokratik normativ sistemdir. Onun fundamental mənbələri artıq bir çox ümümbəşəri dəyərləri təsbit edir: güc tətbiq etmə hədəsinin və ya tətbiqinin yolverilməzliyi, müdaxilə edilməməsi, insan hüquqlarına hörmət, tərksilah, dövlətlərarası əməkdaşlıq və s. Yalnız beynəlxalq hüququn köməyi ilə müstəqil, həqiqətən bərabərhüquqlu dövlətlər sabit beynəlxalq sistem təşkil edə və güclülərin ixtiyarından deyil, beynəlxalq ünsiyyətin ümumi razılaşdırılmış normalardan asılı ola bilərlər. Bu, beynəlxalq hüquqi nizamın və sabitliyin əsası olduğu kimi beynəlxalq münasibətlər sistemində dövlətlərin davranışlarınında əsasını təşkil etməlidir.

Açar sözlər: beynəlxalq hüquq, insan hüquqları, humanitar müdaxilə, soyuq müharibə, beynəlxalq hüquq pozuntuları.

Giriş. Bir sıra mənfi amillərin mövcudluğuna baxmayaraq, müasir dünya bəşəriyyətin daha dayanıqlı və vahid beynəlxalq birliyə doğru davamlı tərəqqisini təsdiqləyən nümunələri görə bilirik. Son illərdə milli hökumətlərin aktual problemləri bir-biri ilə yaxından əlaqələndirmədən, öz dövlətlərinin sərhədləri ilə məhdudlaşaraq yerli miqyasda həll etmək imkanlarının daralması tendensiyası müşahidə olunur.

XXI yüzilliyin başlağıncıqdan etibarən ABŞ-da baş vermiş dəhşətli terror, Balkanlarda və Orta Şərqdə baş verən hadisələr, ABŞ-ın Raketdən müdafiə Sistemlərinin Məhdudlaşdırılmasına dair müqavilədən birtərəfli şəkildə çıxması, yeni nüvə dövlətlərinin yaranması beynəlxalq təhlükəsizlik sisteminə yeni hədələr yaradırdı. Bundan başqa Transmilli Şirkətlərin beynəlxalq təşsərrüfatın aparıcı subyektinə çevrilməsilə beynəlxalq iqtisadi münasibətlər sahəsində də ciddi dəyişikliklər baş verdi. Hər nə qədər ziddiyyətli olsa da, bir sıra dövlətlər məhz dəyişmiş vəziyyətdən yararlanaraq daha yaxşı mövqe almaq imkanları əldə etdilər. XXI yüzilliyin əvvəllərində dövlətlərarası münasibətlərin xarakteri xarici siyasət fəaliyyətinin reallaşması üçün keyfiyyətli yeni metod və vasitələrin tapılmasının vacib olduğunu müəyyənləşdirdi.

Müasir dövrdə beynəlxalq hüquqla bağlı fərqli və ziddiyyətli fikirləri görürük: "Beynəlxalq hüquq qədim dövrdən mövcud olsa da, qlobal birlikdə və beynəlxalq hüququn təbiətində baş verən dəyişikliklər ona tamalilə yeni məna verib. Keçmişdə xarici siyasətin sadəcə bir atributu olaraq öz hərəkətlərinə bəraət qazandırmaq və ya ideoloji rəqiblərini iddiham etmək vasitəsi kimi görünən, dövrümüzün əsas problemlərinin həlli üçün ən mühüm vasitəyə çevrilir [1, 3].

"Beynəlxalq hüquq normaları dövlətlərin təhlükəsizliyinin və dinc yanaşı yaşamasının təminatçısı kimi baxıla bilməz. Üstəlik onlar nəinki belə zəmin kimi çıxış edə bilmirlər, hətta özləri təminat tələb edirlər. Beynəlxalq hüquq müqavilələrə əsaslanır ki, onların bağlanması aktında onların pozulması üçün bəhanə var. Axı, beynəlxalq hüquq ideyasının özü bir-birindən asılı olmayan bir çox dövlətlərin mövcudluğunu və qarşıdurmasını nəzərdə tutur və ondan irəli gəlir. Belə bir vəziyyət özlüyündə müharibə vəziyyəti deyilsə, ən azı onun daimi ilkin şərtidir"[2, 18].

Göründüyü kimi beynəlxalq hüquqa iki fərqli yanaşmanın olması onu deməyə əsas verir ki, beynəlxalq münasibətlərin beynəlxalq hüquqla tənzimlənməsi məsələlərində də ziddiyyətli məqamla-

rın yaranması halları baş verur və bu ziddiyyət zamanla hər bir prinsipin tətbiqi və aktuallığında da müşahidə olunur.

Əlbəttə ki, beynəlxalq hüququn keçdiyi tarixi inkişaf boyu normaların yüksək effektivliyinin olmaması səbəbindən müəyyən zamanlarda enmələr olmuşdur, amma beynəlxalq hüquq normalarında münaqişə toxumlarının olduğunu iddia etmək də heç düzgün olmaz. Əksinə, onun məqsədi maraqlar balansı tapmaqdır. Beynəlxalq hüquq mahiyyət etibarilə ümumdemokratik normalar yaradır və uzun illərdir beynəlxalq münasibətlərdə daxili işlərə qarışmamaq, insan haqlarına hörmət, dövlətlərarası əməkdaşlıq və digər ümümbəşəri dəyərləri möhkəmləndirir.

Əsas hissə. Əvvəllər olduğu kimi, bu gün də beynəlxalq ümumi hüququn təməl daşı dövlətlər arasında münasibətlərdə mübahisəli məsələlərin həllinin zorakı formalarını istisna etmək üçün nəzərdə tutulmuş normalar sistemidir. Beynəlxalq səviyyədə beynəlxalq münaqişələrin həlli üçün gücdən istifadənin qadağan edilməsi prinsipi Versal sisteminin bir neçə müqaviləsində, Millətlər Liqasının Nizamnaməsində və Brian-Kelloq Paktında öz əksini tapmışdır. Daha sonra Nürnberq Tribunalı müharibəni "ən ağır beynəlxalq cinayət" elan etdi. BMT Nizamnaməsi "beynəlxalq sülhün və təhlükəsizliyin qorunması" mexanizmini yaratmaq üçün tarixdə bəlkə də ən təsirli cəhd idi. Beləliklə, 2-ci maddənin 4-cü bəndində deyilir ki, "Birləşmiş Millətlər Təşkilatının bütün üzvləri beynəlxalq münasibətlərində hər hansı dövlətin ərazi bütövlüyünə və ya siyasi müstəqilliyinə qarşı və ya Birləşmiş Millətlər Təşkilatının məqsədlərinə uyğun olmayan hər hansı digər şəkildə güc tətbiq etməklə hədələməkdən və ya güc tətbiq etməkdən çəkinməlidirlər" [3].

Sənəddə həmçinin Təhlükəsizlik Şurasının qərarı ilə kollektiv sülhün tətbiqi ilə bağlı müddəalar var idi. Bununla belə, BMT-yə üzv dövlətlər müxtəlif bəhanələrlə (özünümüdafiə hüququ, yardım tələbləri və s...) fikir ayrılıqlarını həll etmək üçün mütəmadi olaraq zorakı vasitələrə əl atırlar. Bütün bu hallarda situasiyanın məqsədyönlü şəkildə hüquqi müstəvidən siyasət və mənəviyyat müstəvisinə keçirilməsi olub.

Beynəlxalq hüquq normalarının tənzimləmə potensialı həqiqətən sonsuz deyil və bu normaların işləməsi beynəlxalq münasibətlərin dinamikasının düzgün təhlilindən də çox asılıdır. İnsanlar adətən beynəlxalq hüquq normalarının pozulması hallarına diqqəti çəkir, amma onun dünya ictimaiyyətinin gündəlik həyatındakı rolunu nəzərə almırlar. Dünya dövlətləri beynəlxalq hüquq normalarına əməl edərək fəaliyyət göstərməyə üstünlük verirlər və məhz beynəlxalq hüquq dövlətlərin mütəşəkkil birliyini yaradır, onlar arasında münasibətləri elə müəyyənləşdirir ki, bu birlik davamlı şəkildə mövcud ola bilsin.

"Beynəlxalq münasibətlərin inkişafındakı obyektiv meyllər və dövlətlərin qarşılıqlı asılılığın artması bu münasibətlərin hüquqi tənzimlənməsi dairəsinin genişlənməsinə səbəb olmuşdür ki, bu da beynəlxalq hüququn yeni sahələrinin yaranmasında özünü göstərir" [4, 3-4]. Hələ soyuq müharibə dövründə beynəlxalq hüququn kosmos hüququ, dəniz hüququ, nüvə hüququ, ətraf mühitin mühafizəsi hüququ və s. kimi yeni sahələri formalaşdı. XX yüzilliyin sonu XXI yüzilliyin əvvəllərində baş vermiş elmi-texniki tərəqqi digər sahələrin inkişafına təkan verdi. Bu dəyişikliklər sırasında vahid informasiya məkanının yaranması, beynəlxalq iqtisadi əlaqələrin dərinləşməsi, tibb sahəsində yeni texnologiyaların meydana gəlməsi kimi müsbət hadisələrlər yanaşı, geniş miqyaslı iqtisadi böhranları, texnoloji fəlakətləri, beynəlxalq terrorizm və transmilli mütəşəkkil cinayətkarlığın artması kimi mənfi hallar da təəssüflə qeyd olunmalıdır.

Beynəlxalq hüququ prinsiplərinin birinin digəri üzərində üstünlüyünün olmamasına baxmayaraq zamanın tələblərinə uyğun olaraq birinin önə çıxdığı və aktuallaşdığı müşahidə olunur. Məsələn, birinci dünya müharibəsindən sonra dövlətlərarası münasibətlərdə xalqların öz müqəddəratını təyin etmək prinsipi qabardılırdısa, soyuq müharibə dövründə ərazi bütövlüyü və sərhəd toxunulmazlığı aktuallaşdı. İnsan hüquqlarının müdafiəsi bir prinsip olaraq 1975-ci ildə Helsinki yekun aktı qəbul olunduqda beynəlxalq hüququn əsas prinsipi olaraq qəbul olunmasına baxmayaraq, yalnız soyuq müharibə başa çatdıqdan sonra beynəlxalq münasibətlərdə önə çıxdığının şahidi oluruq.

Hazırda insan hüquqları anlayışı suveren dövlətin daxili işlərinə qarışmaq və güc tətbiq etmək üçün səbəb, bəhanə və hüquqi əsas kimi istifadə olunur. İnsan hüquqları və onlara ciddi riayət edilməsi bu gün müasir beynəlxalq sistemdə "görməmək olmaq" prinsiplər kimi elan edilir və bu, zorla

müdaxiləyə haqq qazandırır. Bu mövqeyin tərəfdarları əmindirlər ki, 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə daxil edilmiş müddəalar beynəlxalq hüququn normaları hesab edilməlidir və buna görə də onların ehtiva etdiyi prinsiplər və onların həyata keçirilməsi milli dövlətin müstəsna səlahiyyətlərinə aid deyil. Onların fikrincə, "humanitar fəlakət" və insan hüquqlarının sistematik şəkildə pozulma]sı dövlətin daxili işlərinə qarışmaq üçün kifayət qədər əsasdır.

Beynəlxalq hüququn pozulması iddiamlarına cavab olaraq insan hüquqlarının müdafiəsi siyasətinin tərəfdarları preambula və sənədə istinad edirlər. BMT Nizamnaməsinin 1(3), 55 və 56-cı maddələrinə uyğun olaraq, dövlətlər "hamı üçün insan hüquqlarına və əsas azadlıqlarına universal hörmət və riayət edilməsini" təmin etmək üçün "birgə və ayrıca fəaliyyət göstərməyi" öhdələrinə götürürlər [5].

Bununla belə, nəzəri cəhətdən bu cür müdaxiləyə yol versək, onu hüquqi qəbul etsək də, beynəlxalq ümumi hüquqa uyğun olaraq, çoxlu sayda prinsipial əhəmiyyət kəsb edən məsələlər ortaya çıxır. Məsələn, hansı vəziyyəti "humanitar fəlakət" kimi xarakterizə etmək olar? Onun hansı formaları var? Bunu müəyyən etməyə kimin hüququ var? Necə etmək olar ki, humanitar müdaxilə bir dövlətin öz maraqlarını həyata keçirmək aktına çevrilməsin? Ümumiyyətlə, bəzi əzab çəkən insanların xilası üçün onların günahsız vətəndaşlarının öldürüldüyü vəziyyəti necə qiymətləndirmək lazımdır? Bundan əlavə, artıq tam aydındır ki, elan edilmiş universallığa baxmayaraq, insan hüquqlarının müdafiəsi siyasəti heç vaxt universal xarakter almayacaq. Çətin ki, kimsə ABŞ-ın və hətta nüvə silahına malik Hindistanın daxili işlərinə qarışmağa cürət etsin. Müasir şəraitdə hakim rolunu ABŞ, NATO və Avropa İttifaqı oynayır. Bunun nəticəsidir ki, bu gün beynəlxalq münasibətlərdə "ikili standartlar" siyasətinin adı bir təcrübəyə çevrildiyini görürük. İnsan hüquqlarının müdafiəsi siyasətinin arxasında "soyuq müharibə" ruhunda Qərbin maraq və ambisiyalarının həyata keçirildiyi pərdəyə çevrildiyi barədə fikirlər getdikcə daha çox eşidilir.

Hüququşünaslar "humanitar müdaxilənin" legitimliyini müzakirə edərkən, politologiyada realist konsepsiyaların intibahının şahidi oldu. Məhz T.Hobbs və onun davamçılarının qoyduğu miras bu gün yenidən gündəmdə görünür- "yaşamaq uğrunda mübarizə aparan hər bir dövlət istər-istəməz başqaları ilə münaqişəyə girir." Bildiyimiz kimi, siyasi realizm konsepsiyasının əsas komponenti dövlətlər arasında münasibətlərin qüvvələr balansı kimi fenomeni doğurması müddəasıdır. Antik yunan filosofu Fukididin ("Peloponnes müharibələri 8 kitabda") söylədiyi kimi müharibənin gizli səbəbi beynəlxalq münasibətlər iştirakçılarından birinin gücünün artması tarazlığın pozulmasına səbəb olur. Bu tezis bu gün həmişəkindən daha aktualdır. Beynəlxalq münasibətlərdə bir iştirakçının güclənməsi obyektiv olaraq digərləri üçün "təhlükəsizlik təhlükəsi" yaradır və bütün sistemin sabitliyini pozur. Paritet və tarazlıq şəraitində beynəlxalq hüquq, oyunçuları bərabərhüquqlu mövqedə yerləşdirən "oyun qaydaları" kimi qəbul edilir. Təəssüf ki, əhəmiyyətli üstünlük şəraitində o, daha güclü tərəf mövqeyindən beynəlxalq arenada təşəbbüsü məhdudlaşdıran buxovlar kimi qəbul olunmağa başlayır. Müasir beynəlxalq hüququn əsas problemi məhz normaların və sanksiyaların tətbiqi ilə bağlı hissədədir.

Beynəlxalq hüquqa zidd cinayətlərə görə mühakimə olunmaq hüququ hər hansı bir dövlət və ya dövlətlər qrupu tərəfindən deyil, bütün beynəlxalq ictimaiyyət tərəfindən həyata keçirilməlidir. Beynəlxalq ictimaiyyətin ixtiyarında bəşəriyyətin əsas maraqlarına toxunan ən ciddi pozuntular zamanı ədalət məhkəməsinin həyata keçirilmə mexanizmi olmalıdır [6, 102-114]. Əlbəttə ki, bu baxımdan Nürnber və Tokio məhkəmələri (1945-46), Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (1948), Soyqırım Konvensiyası (1948), İşgəncələrə qarşı Konvensiya (1988) tarixi əhəmiyyət kəsb edir.

Nəticə. Soyuq müharibə başa çatdıqdan sonra BMT Təhlükəsizlk Şurası tərəfindən Yuqoslaviya və Ruandada cinayətləri araşdırmaq üçün beynəlxalq tribunalların yaradılması özbaşınalıq və zorakılıqdan əziyyət çəkən bəzi regionlarda törədilmiş cinayətlərə görə cəza sistemini qurmaq cəhdi idi. Təəssüf ki, sadalananların heç biri "qlobal hüquq-mühafizə sistemi" yaratmaq cəhdi kimi elan edilməmiş və günümüzdə də bu sistemin formalaşmaması səbəbindən humanitar müdaxilənin müsbət nəticə verəcəyi şübhə doğurur.

Corc Forest Kenan qeyd edirdi ki, "Xalqların layiqli və maariflənmiş siyasi nizama çatma yolları milli həyatın ən dərin və ən özəl proseslərdir. Bu yollar çox vaxt yadellilər üçün anlaşılmaz olur və bu proseslərə xarici müdaxilə zərərdən başqa bir şey gətirə bilməz" [7].

ƏDƏBİYYAT

1. Верещетин В.С., Мюллерсон Р.А. Примат международного права в мировой политике// Советское государства и право. 1989 № 7, s.3.
2. Поздняков Е., Шадрина И. О гуманизации и демократизации международных отношений // Мировая экономика и международные отношения. 1989 № 4. С.18.
3. https://www.un.org/en/about-us/un-charter/chapter-2 [01.11.2025].
4. Клименко В.М. Проблема эффективности международного права // Советский журнал международного права. 1991 № 2. с. 3-4
5. https://www.un.org/en/about-us/un-charter/chapter-1 [01.11.2025].
6. О.В.Дамаскин. Современные проблемы международного права и международной юрисдикции как факторы международной и национальной безопасности (С. 102-114, «Гражданин. Выборы. Власть» 2017 № 3).
7. George F. Kennan. America and the Russian Future. https://www.jstor.org/stable/20044309?read now=1#page_scan_tab_contents [01.11.2025].

АФЕТ ГЮЛЬАЛИЕВА
доцент кафедры «Международные отношения»
Бакинского Государственного Университета,
кандидат политических наук, доцент

ВОПРОСЫ МЕЖДУНАРОДНО-ПРАВОВОГО РЕГУЛИРОВАНИЯ МЕЖГОСУДАРСТВЕННЫХ ОТНОШЕНИЙ ПОСЛЕ ХОЛОДНОЙ ВОЙНЫ

Сегодня процессы интеграции, происходящие в политической, экономической, информационной и духовной сферах, создают необходимость более тесного взаимодействия между государствами и политическими системами. На наш взгляд, правовое регулирование этих процессов может основываться исключительно на нормах международного права. Международное право по своей сущности является общедемократической нормативной системой. Его фундаментальные источники уже закрепляют множество общечеловеческих ценностей: недопустимость угрозы силой или её применения, невмешательство, уважение прав человека, разоружение, межгосударственное сотрудничество и др. Только с помощью международного права независимые и действительно равноправные государства могут сформировать стабильную международную систему и зависеть не от воли сильных, а от общепринятых норм международного общения. Это составляет основу международного правового порядка и стабильности, а также должно определять поведение государств в системе международных отношений.

Ключевые слова: международное право, права человека, гуманитарная интервенция, холодная война, нарушения международного права.

AFET GULALIYEVA
Assistant professor of the Department of International relations
of Baku State University, PhD in Political Sciences

ISSUES OF INTERNATIONAL LEGAL REGULATION OF INTERSTATE RELATIONS AFTER THE COLD WAR

Today, the processes of integration occurring in the political, economic, informational, and spiritual spheres create the need for closer interaction between states and political systems. In our view, the legal regulation of these processes can be based solely on the norms of international law. By its essence, international law is a universally democratic normative system. Its fundamental

sources already establish numerous universal values: the inadmissibility of the threat or use of force, non-interference, respect for human rights, disarmament, interstate cooperation, and others. Only with the help of international law can independent and genuinely equal states form a stable international system and rely not on the will of the powerful, but on commonly agreed norms of international communication. This constitutes the foundation of international legal order and stability, and should likewise form the basis of state behavior within the system of international relations.

Keywords: international law, human rights, humanitarian intervention, Cold War, violations of international law.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 noyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 30 noyabr 2025-ci il.
Rəyçilər: t.e.d. Sevinc Yusifzadə, t.e.d. Adil Mirabdullayev.